

“Ərdoğan və Putinin sabahkı görüşü baş tutmayacaq”.

AzNews.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov məlumat yayıb. Açıqlamada bildirilir ki, sabah Rusiyada keçiriləcəyi gözlənilən zirvə toplantısı baş tutmayacaq.

Xatırladaq ki, Türkiyə prezidenti ilə Rusiya prezidenti 15 dekabrda görüşməklə bağlı razılığa gəlmişdilər. Lakin, 24 noyabrda Rusiyanın SU-24 təyyarəsinin vurulmasından sonra keçiriləcək bir çox toplantılar təxirə salınıb.